UOT 94(479.24)

ZƏKİYYƏ MUSAYEVA
Azərbaycan Dövlət İqtisad Universiteti UNEC
"Humanitar fənlər" kafedrasının müəllimi
zakiyya.musayeva@mail.ru

1980-Cİ İLLƏRDƏ AZƏRBAYCAN MƏDƏNİYYƏTININ ƏSAS İSTİQAMƏTLƏRİ

DOI: https://doi.org/10.36719/2708-065X/103/119-123

Əvvəlki illərdə olduğu kimi Azərbaycan elm xadimləri dünyanın nüfuzlu elmi mərkəzləri elmin çoxsahələri üzrə simpozium, konfrans, konqreslərdə qarşılıqlı əlaqələr yaratmışlar. Məqalə Azərbaycan mədəniyyətinin beynəlxalq aləmdə inkişaf perspektivlərinə həsr olunmuşdur. Qeyd edilən dövrdə Azərbaycan Sovetlər Birliyinin tərkibində olsa da, mədəni əlaqələrin bütün sahələri üzrə dünya dövlətləri ilə sıx əməkdaşlıq əlaqələri yaratmış və bu əlaqələr hal-hazırda genişlənib inkişaf etməkdədir.

Açar sözlər: Azərbaycan, beynəlxalq aləm, elm, mədəniyyət, əlaqələr.

Giriş. Mədəniyyət hər bir xalqın mənəvi dünyasının, milli mövcudluğunun əsas atributlarından biridir. Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra ölkənin bütün sahələrində olduğu kimi mədəniyyət və incəsənət sahəsinə xüsusi diqqət yetirmişdir. Azərbaycan mədəniyyətinin yüksək səviyyədə inkişaf etdirilməsində, beynəlxalq aləmdə tanınmasında və geniş yer tutmasında bəyük şəxsiyyət Heydər Əliyevin əvəzsiz xidmətləri olmuşdur. Mədəniyyəti, incəsənəti, teatr, kino, musiqi və başqa sahələrdəki tərəqqi Heydər Əliyevin qayğısı nəticəsində olmuşdur. Bunun nəticəsi olaraq Azərbaycanın milli-mənəvi həyatı yüksəlişə səbəb olmuşdur.

Dünyanın ən qədim xalqlarından olan Azərbaycan xalqı haqlı olaraq özünün tarixi, maddi-mədəniyyət abidələri, incəsənəti, musiqisi, kino və digər sahələrdəki uğurları ilə fəxr edir. Mədəniyyət sahələrinin hər biri ayrı-ayrılıqda uzun və mürəkkəb yol keçmişdir.

Azərbaycan dünya miqyasında tək mədəniyyəti ilə iqtisadiyyat, elm, beynəlxalq, sülh əməkdaşlıq məsələlərində yaxından iştirak edir. Beynəlxalq aləmdə sülhün, əmin-amanlığın bərqərar olunmasında rolunu əsirgəmir. 1969-cu ilin iyulunda Azərbaycanda rəhbərliyə gətirilmiş təcrübəli və bacarıqlı siyasətçi, 1967-ci ildən rəhbərliyə gələnə qədər Dövlət Təhlükəsizlik Komitəsinin sədri olmuş, general mayor Heydər Əliyev respublikada idarəçilik sistemini gücləndirməyə, mərkəzdə, hakimiyyətin yuxarı əsalarında nüfuz qazanmağa və bundan xalqın xeyrinə istifadə etməyə çalışdı. Qısa müddətdə idarəçilik sistemi xeyli gücləndi. Onun hakimiyyəti illərində respublikada 250-dən çox zavod, fabrik, istehsal sexləri istifadəyə verildi.

Milli kadr potensialı artmış, minlərlə azərbaycanlı gənc dünyanın aparıcı elmi tədris ocaqlarına göndərilmiş və savadlı mütəxəssis kimi geri qaytımışdı.[1, s.400]. Bu dövrdə Azərbaycanda orta və ali təhsil xeyli inkişaf etmişdi. 80-ci illərin sonunda respublikanın məktəblərində 1,5 milyon şagirdi, 17 ali məktəbdə 100 mindən çox tələbə oxuyurdu. 70-80-ci illərdə Moskva, Leninqrad (Sankt-Peterburq), Kiyev və digər şəhərlərin ali məktəblərində respublikamız üçün 6 mindən çox kadr hazırlanmışdır.

Azərbaycanda milli hərbi kadrlar yetişdirmək və azərbaycanlı gənclərin SSRİ-nin ali hərbi məktəblərinə daxil olmasını təmin etmək üçün 1971-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış orta internat məktəbi açıldı. [2]

XX əsrin 80-ci illəri Azərbaycan Respublikasının beynəlxalq-mədəni fəaliyyətinin əsas istiqamətlərindən biri də dünyada gedən mənəvi proseslərin inkişafında mədəniyyətimizin rolunun artırılmasından ibarət olmuşdur. Bu da təbiidir. Beynəlxalq mədəni əlaqələr xalqların bir-birini yaxşı başa düşməsinə şərait yaratmış, bir-birini tanımağa, onların bir-birinə yaxınlaşmasına xidmət etmiş və ədalətli beynəlxalq münasibətlərin formalaşması üçün fəaliyyətlərini möhkəmləndirmişdir. Əlaqələrin genişləndirilməsi xalqların və dövlətlərin mənəvi həyatının inkişafını daha da sürətləndirir. Odur ki, tədqiq olunan illərdə, Azərbaycan Respublikası özünün beynəlxalq siyasətini müəyyənləşdirərkən

bu istiqamətin inkişafına xüsusi fikir vermiş və həmin illərdə beynəlxalq aləmdə dövlətlər və xalqlar arasında mövcud mədəni əlaqələrdə fəal iştirakına çalışmışdır.

Mədəni əlaqələr təkcə Azərbaycan Respublikası tərəfindən beynəlxalq aləmdə inkişaf etdirilən bir proses olmamış prosesdir, bu ümumdünya xarakterinə malik prosesdir. Beynəlxalq mədəni əlaqələrin möhkəmləndirilməsi və onların mənəvi proseslərin inkişafında rolu məsələsi dünyada mövcud olan dövlətlərin xarici siyasətinin mərkəzində durur. Beynəlxalq mədəni əlaqələr, bir güclü proses kimi, dövlətlərin əməkdaşlığını müəyyənləşdirir və onun inkişafına xidmət edən dövlətlərarası müqavilələrin, sazişlərin və bu sahədə tərtib olunmuş əməkdaşlıq sənədlərinin əsas məğzini təşkil edir. Bu əlaqələrin möhkəmləndirilməsi dünyada yaradılmış xüsusi beynəlxalq təşkilatların, o cümlədən BMT-nin elm, təhsil və mədəniyyət təşkilatı olan və tərkibində o dövrdə 160-dan artıq dövləti birləşdirən YUNESKO kimi beynəlxalq təşkilatın fəaliyyətinin əsasını təşkil edir.

Azərbaycan Respublikasının sovetlər imperiyasının tərkibində olmasına baxmayaraq dünyada gedən bütün ictimai-siyasi və mədəni həyatda böyük rol oynamışdır. Azərbaycan mədəni əlaqələrini həm kapitalist və həm də sosialist ölkələrinin bütün sahələrində işıqlandırılmışdır. Bu əlaqələr ölkələrarası müqavilə, əməkdaşlıq sənədləri vasitəsilə həyata keçirilmişdir.

Tədqiq olunan dövrdə Azərbaycan mədəni əlaqələrinin bir sahəsi də dövlətlərarası elmi kütləvi kitab, jurnal yarmarkalarının, sərgilərinin keçirilməsi olmuşdur. Bu əlaqələr birgə sex əməkdaşlığın daha da inkişaf etdirilməsinə böyük töhvələr vermişdir.

Şübhəsiz ki, belə bir ciddi Ümumdünya prosesində Azərbaycanın və onun mədəniyyətinin də özünəməxsus yeri və payı vardır. Qeyd etmək lazımdır ki, tədqiq etdiyimiz dövrdə Azərbaycanın bu sahədəki beynəlxalq əlaqəsi özünəməxsus istiqamətdə inkişaf etmiş və geniş xarakter almışdır. Lakin bir xüsusiyyəti də aşılamaq lazımdır ki, sosial-iqtisadi və siyasi həyatın başqa sahələrində olduğu kimi, Azərbaycanın beynəlxalq mədəni əlaqələri də o dövrdə tərkibində olduğu SSRİ dövlətinin xarici siyasət sistemi çərçivəsində həyata keçirilirdi. Ancaq bu faktor Azərbaycanın imkanlarını məhdudlaşdıra bilməmişdir [3, s.149-151].

Beynəlxalq mədəni əməkdaşlıq, çoxtərəfli mədəni əlaqələr hər iki dövlətin xarici siyasəti sahəsində müəyyənləşdirdiyi strategiyanın həyata keçirilməsinin mühüm formasıdır. Azərbaycan Şərqlə Qərbin qovşağında yerləşdiyindən, milli mədəniyyətimiz hər iki tərəfin mədəniyyətinin elementlərini özündə birləşdirmişdir. Ona görə də Azərbaycan mədəniyyətinin dünyada qəbul edilməsi, xüsusilə Şərq və Qərb ölkələrinin bizim mədəniyyət və incəsənətimizə maraq göstərməsi təsadüfi deyil. Ikitərəfli mədəni əlaqələrin davam etdirilməsində bir çox ölkələrlə - Rusiya, Çin, Böyük Britaniya, Polşa, Türkiyə. Rumıniya, eyni zamanda postsovet məkanını təmsil edən respublikalardan Özbəkistan, Gürcüstan, Belorus, Qazaxıstan, Ukrayna ilə mədəni əməkdaşlıq haqqında hökumətlərarası sazişlər bağlanmışdır [4].

Türk xalqlarını birləşdirən ən böyük amillərdən biri onların eyni köklü mədəniyyətə mənsub olmalıdır. Bu mədəniyyət onların zəngin tarixi keçmişindən xəbər verir. Ölkəmiz bütün dövrlərdə qardaş türk dövlətləri ilə mədəni əlaqələrin inkişafına xüsusi diqqətlə yanaşmışdı [5, s.1].

Bu dövlətlərdən bəziləri keçmiş SSRİ tərkibində Azərbaycanla bərabər on beş respublikadan biri olmuşdur. Istər həmin dövrdə, istərsə də müasir zəmanəmizdə Azərbaycan həmin dövlətlərlə qardaş-dost münasibətlərini qoruyub saxlamış, eyni kökdən, soydan olmağımız əlaqələrimizi daha da doğmalaşdırır.

Göstərilən illərdə Azərbaycan dünyada gedən mədəni əlaqələrin genişlənməsində və inkişaf etməsində öz milli potensialı ilə fəal iştirak etmişdir. Bu əlaqələr milli mədəni potensialın müxtəlif janr, məzmun və keyfiyyətlərə malik olduğu üçün o müxtəlif forma, məzmun və istiqamətlərdə də yaradılıb, aparılmışdır. Həmin əlaqələr milli mədəniyyətimizin, incəsənətimizin bütün sahələrini: musiqi, teatr, kinematoqrafiya, televiziya və radio, rəssamlıq, memarlıq, heykəltəraşlıq, ədəbiyyat, jurnalistika, kitab çapı və mübadiləsi sahələrində, ictimaiyyətin, qardaşlaşmış şəhərlərin əlaqələrinin yaradılması, turizm və idman sahələrində əməkdaşlığın genişləndirilməsi və inkişafı yolu ilə həyata keçirilmişdir. Mədəniyyət sahəsində bu sadaladığımız forma, metod və istiqamətlər şübhəsiz ki, xalqlar arasında qarşılıqlı anlaşma və əməkdaşlığın genişlənib inkişaf etməsi sahəsində hərəsi özünəməxsus dərəcədə müsbət rol oynamışdır. Bu əlaqələrin inkişafında milli incəsənət müstəsna xidmət göstərmişdir. Respublikadan xarici ölkələrə not və valların göndərilməsi, musiqi kollektivlərinin qar-

şılıqlı səfərləri, beynəlxalq musiqi kollektivlərinin qarşılıqlı səfərləri, beynəlxalq musiqi festivalları və incəsənət xadimlərinin şəxsi əlaqələrinin yaranıb inkişaf etməsi o vaxt bu sahədə olan əlaqələrin istiqamətlərindən olmuşdur.

80-ci illərdə mədəniyyət və Azərbaycan incəsənəti nümayəndələri, 170-dən çox xarici ölkələrdə olmuş (ölkələrin bəziləri bir neçə dəfə təkrar olunmuşdur), öz növbəsində isə, eyni dövrdə, 150-dən çox xarici ölkənin incəsənət nümayəndələri Azərbaycana gəlmişlər. Həmin dövrdə respublikanın incəsənət xadimləri xarici ölkələrin 1000-dən yuxarı şəhərlərində yaradıcılıq səfərlərində olmuş, təxminən 2800-dən yuxarı konsert vermiş və 8000-ə qədər görüşlər keçirmişlər.

Onu göstərmək kifayətdir ki, Lenin mükafatı laureatı, SSRİ və Azərbaycan SSR xalq artisti Qara Qarayevin "Yeddi gözəl", "İldırımlı yollarla" baletləri dünyanın 9 ölkəsində, Arif Məlikovun "Məhəbbət əfsanəsi" dünyanın 25-dən artıq ölkəsində tamaşaya qoyulmuşdur. SSRİ və Azərbaycan SSR xalq artisti Fikrət Əmirovun "Şur" və "Kürd ovşarı" muğam simfonik əsərləri ABŞ-ın Boston simfonik orkestri tərəfindən, "Nizami" simfonik poeması isə Böyük Britaniya krallığının simfonik orkestri tərəfindən ifa olunmuşdur.

Tədqiqat dövründə respublikanın teatr, kinematoqrafiya, televiziya və radio verilişləri sahəsində də əlaqələri xeyli genişləndirmişdir. Göstərilən sahədə əlaqələr müxtəlif formalarda həyata keçirilirdi. 80-ci illərdən tamaşaların qarşılıqlı hazırlanması praktikası da tətbiq edildi. 1981-ci ildə türk artisti Atilla Makizade M.F.Axundov adına Opera və Balet Teatrında oynanılan "Seviliya bərbəri" və "Fraust" operalarında çıxış etdi. Həmin ildə Türkiyə səhnəsində ilk dəfə olaraq bəstəkar A.Məlikovun "Məhəbbət əfsanəsi" baleti tamaşaya qoyuldu. Onun ilk tamaşasında Türkiyə Respublikasının Prezidenti K.Evrin, Milli Təhlükəsizlik Şurasının üzvləri, nazirlər iştirak etdilər [6].

Qeyd etmək lazımdır ki, Azərbaycanın dünya ölkələri ilə mədəni əlzqələri demək olar ki, bütün sahələr üzrə inkişaf etmişdir. Azərbaycan ziyalıları mədəni əlaqələrin geniş yayılmasına və bu əlaqələrin daha da möhkəmlənməsi üçün bacarıqla çalışmışlar. Istər kino, teatr, radio, televiziya sahəsində əlaqələrimiz daha da genişlənirdi. Azərbaycanın görkəmli teatr, kino, balet, opera xadimləri işlər kapitalist və istərsə də Sosialist ölkələrində geniş auditoriyalarda sevinclə qarşılanırlar.

Azərbaycanın görkəmli bəstəkarları, balet ustalar məşhur əsərləri ilə dünya səhnələrində çıxış edərək alqışlanırlar.

1982-ci ildə mədəni əməkdaşlıq proqramına uyğun olaraq Mərakeşə Azərbaycan Dövlət Akademik Opera və Balet teatrının xoreoqrafi N.Nəzirova və SSRİ xalq artisti, SSRİ Bəstəkarlar İttifaqı İdarə Heyətinin katibi F.Əmirov səfər etdilər. Mərakeşin Rabat və Kasablanka şəhərlərində Azərbaycan Dövlət Opera və Balet Teatrının trupu F.Əmirovun "Min bir gecə" baletini göstərdi [7].

1990-cı ilin mayında M.Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Dram Teatrının Türkiyəyə qastrolları mühüm hadisə oldu. Azərbaycan sənət ustalarının İstanbul, Ankara və İzmir şəhərlərindəki çıxışları uğurla keçdi və mədəni əlaqələrin dərinləşməsində böyük rol oynadı. Həmçinin. Opera və Balet Teatrının trupu İordaniyada keçirilən IX Mədəniyyət və İncəsənət Festivalında iştirak etdi və fəxri diploma layiq görüldü [8, s.108].

Respublikamızın beynəlxalq mədəni əlaqələrində kino incəsənətinin özünəməxsus yeri vardır. 80-ci illərdən kinematoqrafiya sahəsində əməkdaşlıqda irəliləyiş baş verdi. Bu əməkdaşlığın formaları zənginləşdi. 1981-ci ildə Sarayevo (Yuqoslaviya) şəhərindəki "Suteskafilm" studiyası ilə "Azərbaycanfilm" Böyük Vətən müharibəsində Yuqoslaviyada müqavimət hərəkatında iştirak etmiş həmvətənlərimizə həsr edilmiş kino çəkdilər. 1983-cü ilin mart-aprelində Bakıda Danimarka kinofilmləri həftəsi keçirildi. Bu tədbirdə Danimarka Milli Kino İnstitutunun direktor müavini Klaus Xesselberq başda olmaqla kinematoqrafçıların nümayəndə heyəti iştirak etdi.

1990-cı ildə Türkiyədə "Azərbaycan xalçası" sərgisi keçirildi. Sərgidə Türkiyə Respublikasının mədəniyyət və turizm naziri Namik Kamil Zeybək çıxış etdi. Azərbaycanın xalq rəssamı Kamil Əliyevin fərdi xalça sərgisinin açılışında isə Azərbaycan Respublikasının mədəniyyət naziri Polad Bülbüloğlu xalqımız adından rəssamın toxuduğu, üstündə Kamal Atatürkün portpeti olan xalçanı Türkiyə tərəfinə hədiyyə etdi. Bu xalça, azərbaycanlı rəssamın böyük türk xalqına məhəbbətinin ifadəsi demək idi. Həmin il, həmçinin Varşavada Azərbaycan rəssamı Mənzər Ağayevanın əsərləri, Şri Lankada Azərbaycan günləri dövründə isə respublikamızın digər rəssamlarının əsərləri nümayiş etdirildi. Öz növbəsində, 1990-cı ilin oktyabrında Bakıda rəssamlıq üzrə beynəlxalq simpozium keçirildi.

Onun işində ABŞ, Almaniya və Yuqoslaviyadan 13 fırça ustası iştirak etdi. Simpoziumda 50 əsər nümayiş etdirildi [9].

Nəticə. Azərbaycan Respublikası hazırda dünyada gedən siyasi, iqtisadi, mədəni proseslərdə layiqincə təmsil olunur. Milli mədəniyyətimizin təbliği istiqamətində aparılan siyasət ölkəmizin beynəlxalq miqyasda daha yaxından tanınmasında əhəmiyyətli rol oynayır.

Beynəlxalq mədəni əməkdaşlıq, çoxtərəfli mədəni əlaqələr bu dövlətin xarici siyasət sahəsində müəyyənləşdirdiyi strategiyanın həyata keçirilməsinin mühüm formasıdır.

Bu gün Azərbaycan mədəniyyəti dünyaya yüksək sürətlə inteqrasiya etməkdədir. Dünyanın nüfuzlu beynəlxalq təşkilatları, Azərbaycan mədəniyyəti və incəsənəti ilə yaxından maraqlanırlar. Beynəlxalq festivallarda, konfrans və seminarlarda Azərbaycan incəsənət nümunələri nümayiş olunur, incəsənət xadimləri tədbirlərdə iştirak edərək, ölkəmizin mədəni nailiyyətlərini dünyaya tanıdırlar. ABŞ, Kanada, Rusiya, Çin, Yaponiya, Misir, Qətər, Qazaxstan, Yunanıstan və b. ölkələrdə keçirilən Azərbaycan mədəniyyəti günləri son illər daha genişlənmişdir.

Azərbaycan artıq dünyanın nüfuzlu beynəlxalq mədəni tədbirlərinə xüsusi olaraq dəvət alır. Rəsm sərgiləri, folklor festivalları, klassik və müasir musiqi festivalları, kitab sərgiləri və s. dünya birliyinin bir parçası olaraq layiqincə təmsil olunur. Azərbaycan mədəniyyətinin bütün sahələrini dünyaya tanıtmaq və mədəni əlaqələrin inkişafı dövlətlər və xalqlar arasında simvola çevrilir.

ƏDƏBİYYAT

1. XX əsr Azərbaycan tarixi. Ali məktəblər üçün dərslik. II cild. Bakı, Təhsil, 2009, 560 s.
2. Həsənov V.S. Azərbaycan tarixi 1920-1991-ci illər. Bakı, 2016, 218 s.
3. Sayadov S.A. XX əsr: Azərbaycan və dünya (1945-1990-cı illər). Bakı, "Elm", 2006, 186 s.
4. Beynəlxalq mədəni əlaqələr dövlət siyasətinin prioritetlərindəndir / Hürriyyət – 2019, 26-28 oktyabr, s.14.
5. Ramilə Yaqubqızı. Mədəni əlaqələr yeni inkişaf mərhələsində / Respublika qəzeti, 2023, 30 avqust, s.1, 6. – [Elektron resurs]. – URL: https://respublika-news.az/uploads/files/pdf_archive/8efbed3e7e-20230830.pdf [07.12.2023].
6. Kommunist qəzeti, 1987, 22 dekabr.
7. Бакинский рабочий, qəzeti, 1984, 26 may.
8. Hacıyev H.Ə. Dostluq və əməkdaşlıq telləri. Bakı, Azərnəşr, 1985, 190 s.
9. Kommunist qəzeti, 1985, 9 fevral.

ЗАКИЯ МУСАЕВА
Преподаватель кафедры «Гуманитарные дисциплины»,
Азербайджанский государственный экономический университет UNEC

ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ АЗЕРБАЙДЖАНСКОЙ КУЛЬТУРЫ В 1980-Е ГОДЫ

Как и в предыдущие годы, азербайджанские научные деятели наладили взаимоотношения с престижными научными центрами мира на симпозиумах, конференциях, конгрессах в различных областях науки. Статья посвящена перспективам развития азербайджанской культуры в международном мире. Хотя Азербайджан в то время был частью Советского Союза, он установил тесные отношения сотрудничества с государствами мира во всех областях культурных связей, в настоящее время эти отношения расширяются и развиваются.

Ключевые слова: Азербайджан, международный мир, наука, культура, связи.

ZAKIYYA MUSAYEVA
Lecturer of Department of "Humanities",
Azerbaijan State University of Economics UNEC

MAIN DIRECTIONS OF AZERBAIJANI CULTURE IN 1980s

As in recent years, Azerbaijani scientists has made mutual connections at the prestigious scientific centers of the world in symposiums, conferences, congresses in various fields of science.

This scientific article is dedicated to the development prospects of Azerbaijani culture in international sphere. Although Azerbaijan was the part of Soviet Union during the mentioned period, has established close cooperation relations with the world nations in all fields, and these relations are currently expanding and developing.

Keywords: Azerbaijan, international peace, seience, culture, ties.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 07 dekabr 2023-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 21 dekabr 2023-cü il.
Rəyçilər: t.ü.f.d. Xədicə Abbaslı, t.e.d. İbrahim Zeynalov.